# AKADEMİK FƏXRƏDDİN QƏDİROV «ELMLƏR AKADEMİYALARI BEYNƏLXALQ ASSOSİASİYASI»NIN BÖYÜK MEDALI İLƏ TƏLTİF EDİLİB

AMEA-nın birinci vitse-prezidenti v.i.e., akademik Arif Həşimov və AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev dəvətlə «Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyası» şurasının 36-cı iclasında iştirak ediblər.

Belarusun paytaxtı Minsk şəhərində keçirilmiş 3 günlük tədbirdə «Elmi tədqiqatların əsas istiqamətləri», «Atom enerjisi və enerji təhlükəsizliyi», «Kosmik tədqiqatlar sahəsində akademiyalararası əlaqələrin möhkəmləndirilməsi» və s. mövzularda məruzələr dinlənilib.

«Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyası Şurasının 30 illiyi: elmi fəaliyyət üfüqlərinin genişləndirilməsi» mövzusu üzrə çıxışlarda AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyevin nitqi və təklifləri maraqla dinlənilib.

Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyasının tərkibində səmərəli fəaliyyətinə görə Elm və Təhsil Nazirliyi Neft və Qaz İnstitutunun baş direktoru, akademik Fəxrəddin Qədirov bu qurumun böyük medalı ilə təltif edilib.

*Hazırladı*

***Könül ABBASOVA,***
**İjtimaiyyətlə əlaqələr şöbəsinin müdiri.**

